# MÜŞFİQ YARADICILIĞINDA ƏNƏNƏ VƏ NOVATORLUQ HAQQINDA

Afaq YUSİFLİ*

**Xülasə:** "Müşfiq cəsarətli, uzaqgörən, klassik ədəbiyyata və şifahi xalq ədəbiyyatına münasibətdə ən doğru mövqe tutan**,** ənənənin rolunu çox düzgün başa düşən, novatorluğu layiqincə qiymətləndirən vətəndaş şairlərimizdən biri olmuşdur" Bu sətirlər görkəmli ədəbiyyatşünas G.Hüseynoğlunun "M.Müşfiqin yaradıcılıq yolu" kitabından götürülmüşdür. M. Müşfiq poeziyasının az öyrənilən, layiqincə diqqət cəlb etməyən, ancaq öyrənilməyə, aydınlaşdırılmağa ehtiyacı olan cəhətlərindən biri klassik irsi ilə əlaqəsi, ona münasibətidir. Əkrəm Cəfər, N. Rəfibəyli, Məsud Əlioğlu Müşfiq yaradıcılığında klassik irslə bağlılığın müəyyən cəhətlərini qeyd etsələr də, G.Hüseynoğlu şairin ədəbi-estetik görüşlərindən danışarkən onun klassik irs, xüsusilə də Füzuli yaradıcılığı bağlılığını xüsusi vurğulamışdır. Müşfiq poeziyası formaca yeni tipli, yeni üslublu bir aləmdir. O, klassik ədəbi janrlara müraciət etmir, müraciət etməyi sevmir, ancaq istədiyi vaxt bu formalardan bəhrələnə bilir. Mikayıl Müşfiq yeni Azərbaycan ədəbiyyatında özünəməxsus yeri, mövqeyi olan sənətkarlardan biridir. Onun faciəli şəxsi həyatındakı ağrı-acılar poeziyasındakı qanadlı nikbin ruhu kölgələyə bilmir və bunu etməkdə acizdir. Onun acı taleyi də, əyilməz ruhu da, ilham dolu səsi də yaddaşlarda dərin izlər buraxmışdır.

***Açar sözlər:*** *klassik irs, Füzuli, ənənə, novatorluq, estetik görüşlər.*

**Tradition and Innovation in Mushfig's Work**

**Abstract:** "Mushfig was one of our citizen poets who was brave, far-sighted, took the most correct position in relation to classical literature and oral folk literature, understood the role of tradition very correctly and appreciated innovation worthily". These words were taken from the book "M.Mushfig's creative way" by the outstanding literary critic G.Huseynoglu. One of the aspects of M.Mushfig's poetry that has not been studied until now, which does not attract well-deserved attention, but needs to be studied and clarified is its connection with the classical heritage, its attitude to it. Though Akram Jafarli, N.Rafibayli, Masud Alioghlu mentioned the definite aspects of the connection of the classical heritage in Mushfig's activity, speaking about the poet's literary and aesthetic views, G.Huseynoglu mentioned his commitment to the classical heritage, especially Fuzuli's activity. Mushfig's poetry is a world of a new type and a new style. He does not address classical literary genres, he does not like to apply, but he can benefit from these forms at any time. Mikayil Mushfig is one of the artists who has a special place and position in the new Azerbaijani literature. The pains and sufferings of his tragic personal life cannot and overshadow the winged optimistic spirit in his poetry. His bitter fate, indomitable spirit and inspiring voice have left deep traces in our memories.

***Key Words:*** *classical heritage, Fuzuli, tradition, innovation, aesthetic meetings*

## Giriş

M. Müşfiq yeni, müasir sənətkardır. Sənətə yeni baxışı olan bir şairdir. Ancaq öz poeziyasında əvvəlki dövrlərin böyük sənətindən, o cümlədən, hər kəsdən çox Füzuli irsindən təsirlənmiş, onu sevmiş, qiymətləndirmiş, xatırlamış, ancaq ondan heç nə götürməmiş, ona bənzər olmağa çalışmamışdır. Yeni, müasir fikirli, müasir üslublu, sadə dilli, hissli, duyğulu bir sənətkar kimi özünü təsdiq etmişdir. On ildən bir qədər artıq bədii yaradıcılıqla məşğul olan bu orijinal sənətkarın irsində də, fikir və düşüncələrində də başqa məqamlarla yanaşı, Füzuli də vardır. Bununla bərabər M. Müşfiq irsinin tədqiqatçısı yazır: "Müşfiq poeziyası rəngarəng poetik formaları, tutarlı zəngin bədii təsvir vasitələri və s. cəhətincə elə fərqlənir ki, bunlarda onun şeirində tamamilə başqalarından fərqlənmək, seçilmək, özünəməxsusluq, orijinallıq, müşfiqanəlik gətirir" (Hüseynoğlu,1983: 8).

## 1. Müşfiq Yaradıcılığında Füzuli Poeziyasına Müraciətin Fərqli Çalarları

Füzuli vurğunu görkəmli ziyalılarımızdan Əkrəm Cəfərlə dostluğu, məktublaşması, ədəbi yaradıcılıq məsələləri ilə bağlı mübahisələrə girişməsi və digər məqamlar onda da Füzuli sevgisi oyada bilməzdimi? Düzdür, onun Ə. Cəfərə yazdığı məktubda Füzuli adı çəkilmir, Faruq Nafiz və başqa türk şairlərindən, şeirində yeni dil və üslubdan söhbət açılır. Ancaq düşünmək olar ki, bu, ancaq konkret bir mövzudan, mətləbdən gələn bir məqamdır. Hətta belə düşünmək daha doğru olar ki, M. Müşfiqi Ə. Cəfərlə yaxınlaşdıran əsas səbəblərdən biri onların hər ikisinin sonsuz Füzuli sevgisi ilə bağlıdır. Şairin "Ulduzlar" şeirində belə bir yer var:

Şirin söhbətlərdən uzaq da olsaq,

* Gəncə Dövlət Univeriteti, Azərbaycan və dünya ədəbiyyatı kafedrasının dosenti,e-mail: yusifli.afaq@mail.ru

DOI :10.30546/100981.2024.055

Uzun illər boyu ayrı da qalsaq,
Eyni duyğularla vurur qəlbimiz. (Müşfiq,2004:168).

Sonet janrında yazılan bu şeirdə söhbətin mövzusu, mətləbi ayrıdır. Ancaq buradıkı bu işarə diqqəti cəlb edir. Tam əminliklə demək olar ki, Ə. Cəfərlə M. Müşfiqin qəlbi Füzuliyə məhəbbətdə, sevgidə eyni duyğularla vurmuşdur. Məhz bunun nəticəsidir ki, ömrünü M. Müşfiq yaradıcılığının öyrənilməsi və təbliğinə həsr edən S. Hüseynoğlu şairin

Füzuli yüksəldi
Əsrin fövqünə,
Sığmadı dühası
Bağdadın üfqünə

misralarını nümunə gətirərək yazır: "Bu misralar torpağımızın, mədəniyyətimizin, dilimizin inkişafında, tanınmasında müəyyən izləri, payları olan dahi sənətkarlarımız Füzuli, Sabir kimi şəxsiyyətləri qabarıq şəkildə nəzərimizdə canlandırır, onları bir az da sevdirir" " (Hüseynoğlu,1999:10).

Şairin qısamüddətli yaradıcılığında biz onun Füzuli sevgisinin rəngarəng nümunələri ilə qarşılaşırıq. Söhbət onda deyil ki, Müşfiq Füzuli davamçısı olub, qəzəl, qəsidə yazıb, ona bənzətmə şəklində əsərlər meydana gətirib. Söhbət ondan gedir ki, Müşfiq həmişə Füzulini xatırlayır, ya onunla razılaşır, ya mübahisə edir, ya da bütöv bir dövrün ən böyük təmsilçisi qismində onu xatırlayır.

"Bəyaz çöllər" şeirində bu fikrin parlaq bir nümunəsini görürük. Bəlkə də kiçik bir poema adlandırıla bilən bu şeirdə Araz üstündə qurulan bir bənddən, pambıq tarlalarının suvarılmasından, ilanlar yatağı olan çılpaq çöllərdə pambıq tarlaları salınmasından söhbət açılır. Şeir beşbəndlik bir girişlə-proloqla başlayır. Çoxdan bəri şeir yazmayan, ürəyi ilk bahar selləri kimi atlana-atlana qaynamayan şair könlünü şeirlə oyatmaq fikrinə düşür:

Çoxdandır bir şeir yazmamışam mən,
Çoxdandır bir nəğmə tutdurmamışam.
Çoxdandır ayrılıb şeir aləmindən
Xəyal dənizinə baş vurmamışam.
Fikrim qasırğalı dəryalar kimi,
İstənilən qədər dalğalanmamış,
Könlüm uzaq gedən xülyalar kimi
İncə buludlarla çulğalanmamış. " (Hüseynoğlu,1988: 88).

1931-ci ildə yazılan bu şeirdə yeni dövr, onun quruculuq işləri, acı keçmişlə bu günün müqayisəsi əsasdır. Keçmişə acıma, bu günü tərənnüm, onun üstünlüyünü ilhamla qələmə almaq şeirdə əsas məqsəddir. Şeirin "Qədim karvan" adlı hissəsində bir parçaya diqqət edək:

Dərili qanğuru yavrusudur ay,
İştə yol ucundan çıxdı bir alay.
Poslası ulduzlar olan bir karvan,
İçdiyi sarı su, yediyi yavan.
Sarvanlar uyğulu, dəvələr yorğun.
Nədir bu heçliklə bu gülünc oyun?!
Torpaq yaraları ayaqlarında,
Yazın istisində, qışın qarında,
Saqlı üzlərində düşkünlük qəmi,
Ürəklərində bir xəzan axşamı,
Qarşılarındakı dənizlər sərab,
Ümidlər şikəstə, əməllər xarab,
Rahatlıq bilmədən yürür bu karvan. " (Hüseynoğlu,1974:90).

Bu parçanı nümunə gətirməkdə məqsədimiz odur ki, M. Müşfiqin bu şeirin epiqrafında nə üçün Füzuliyə üz tutduğunu, ondan nümunə gətirdiyini aydınlaşdıraq. M. Müşfiq epiqrafda Füzulinin aşağıdakı beytini nümunə gətirmişdir:

Əgər su damənin tutdum, rəvan döndərdi üz məndən,
Və gər güzgudən umdum sidq, əksi-müddəa gördüm. (Füzuli,I, 1958:125)

Füzuli insanların etibarsızlığını, biganəliyini, imdad istəyənin, haray çəkənin səsini eşitmədiyini, üz döndərib getdiyini, güzgü kimi saf, doğruçu bir predmetdə də, doğruluq yox, istənilən arzunun əksini, şəklini gördüyünü söyləyir. Füzuli mübaliğəli obrazlarla mühitin, dövrün eybəcərliyinin mönumetnal bir tablosunu yaradır. Buradan da göründüyü kimi, Füzulini gözəl bilən, onun hər misrasına, beytinə, onlardakı fikrə, düşüncəyə, baxışa dərindən bələd olan şair öz dövrünün hadisələri zirvəsindən baxaraq, coşğun bir hayqırışla "Xayır!" deyir. Füzuli şeirinə eyni ölçü və qafiyə, eyni obrazlı dillə belə cavab verir:

Xayır, məndən sular dönməz, təbiət pəncəm altında,
Baxıb ayineyi-qəlbimdə əksi-aşina gördüm. (Hüseynoğlu,1974:88).

M. Müşfiq bu fikirdədir ki, sular ondan üz döndərmir, onun dövrünün insanları təbiəti cilovlayır, onu özünə tabe edir. Araz üzərində bənd quraraq susuz çöllərə su verir, həyat gətirir. Füzuli hətta güzgüdə doğruluq görmürsə, M. Müşfiq qəlbinin güzgüsündə dostun surətini görür, etibar, sədaqət, doğruluq olduğunu bəyan edir. Çünki hələ 1931-ci ildir, 37-ci il, onun faciələri, hətta Füzuli sənətini dəhşətə, heyrətə salacaq alçaqlıqları hələ qabaqdadır. Mikayıl Müşfiqin Füzuliyə etirazının nə dərəcədə doğru olub-olmadığını bir kənara qoyaq. "Bəyaz çöllər" şeirinin əvvəlində Füzulidən gətirilən beyt, ona cavab olaraq Müşfiqin yazdığı iki misra onun Füzuli irsinə dərindən bələdliyinin, onu həm bildiyinin, həm də anladığının inkarolunmaz təsdiqidir.

**2. Müşfiq Yaradıcılığında Füzuli Xatırlamaları**

M. Müşfiq Füzulini bütün zənginliyi ilə bilən, sevən, duyan bir sənətkar olmuşdur. Bu, şəksiz həqiqətdir. Bu həqiqəti onun şeirlərindəki azsaylı xatırlamaları da təsdiq edir. Ancaq qəribə suallar da meydana çıxır. Şairin "Tar" şeirini yada salaq. Bu əsər klassik şeirə, keçmiş milli ruha olan məhəbbətin ifadəsidir. G.Hüseynoğlunun yazdığı kimi "Cəsarət və uzaqgörənlik. Yenilikçiliyin və novatorluğun qartal qanadları. "Tar" şeirinin vaxtında yaranmasının, gecikməməsinin əsas səbəbkarlarıdır".[5.73] Belə bir şeirdə Füzuli yada düşmür, "Baharın, Seyyidin qəzəli" xatırlanır, Nədim və Vaqif yada salınır, maraqlı təhlil aparılır:

Həvəsdən doymayan acgözlü şairlər,
Nədimlər, Vaqiflər,
Gözəllik sirrinə vaqiflər,
Həp səni dinləmiş,
Oxumuş, inləmiş
İndi də bizimçün oxu, tar!
Səni kimi unutar? (Müşfiq,2004:122).

Xatırlanan sənətkarların klassik irsdəki mövqeyi, onların yaradıcılığını dərindən bilməsi məlum həqiqətdir. Eyni zamanda Müşfiqin Bahar Şirvanı, Seyyid Əzim Şirvani kimi sənətkarları qəzəllə bağlı xatırlayıb Füzulini yad etməməsi Füzuli məqamının Müşfiq üçün daha uca olmasının təsdiqidir. M. Müşfiq Füzulini Bahar, Seyyid, Nədim, Vaqif kimi şairlərdən, əlbəttə, daha dərindən bilir və sevirdi.

"Şairin ölümü" şeirindəki bir məqam bu baxımdan maraqlıdır. Bu şeir C. Cabbarlının ölümü münasibətilə yazılmışdır. Burada Füzuli orta əsrlər şeirimizin C. Cabbarlı sənətinə layiq yeganə bir nümayəndəsi olaraq xatırlanır. Burada Bahar, Seyyid, Nədim, Vaqif və digərləri haqqında danışılmır.

Yüksəl, yüksəl, mənim şöhrətli ölkəm!
Şeirdən, şairdən dövlətli ölkəm!
Sənin qırılmayan qanadların var,

Tarixdə layəmut büsatların var.
Böyük Füzuliyə ruh verən ellər
İşini vaxtında bitirəcəkdir,
Hər zaman Cəfəri yetirəcəkdir! (Müşfiq,1970:49).

S.Vurğun "Azərbaycan" şerində bu böyük poeziya keçmişini "Nizamilər, Füzulilər" deyə xatırlayırsa, M.Müşfiq ancaq Füzulinin adını çəkməklə kifayətlənir, onu keçmiş mədəni irsimizin ən layiqli yeganə nümayəndəsi kimi xatırlayır.

"Azadlıq dastanı" poemasında da Füzuli yada düşür. Azadlıq döyüşlərinə qoşulan Leyla adlı misirli bir qız xatırlanır, onun qəhrəmanlığı yeni dövrün səciyyəvi əlaməti kimi nümunə gətirilir:

Vüsala irməyən ey dünkü Leyla,
Oyan, cəbhədədir bugünkü Leyla!
Bizə xəbər verir Leyla səhərdən,
Qaldırsın Füzuli başını yerdən,
Yazsın bu Leylanı həvəslə tutub
Şimşəklərdən qələm, sellərdən üslub. (Müşfiq,1983:258).

Burada Füzuli Leylası ilə inqilabçı misirli Leyla qarşılaşdırılır, müasir Leylanın cəbhələrə qoşulması Müşfiq tərəfindən alqışlanır. Füzulinin qəhrəmanı olan Leylanın mütiliyi rədd olunur. Müşfiq bir sənətkar kimi döyüşkənliyi, mübarizliyi sevir və tərənnüm edir. O, belə düşünür ki, Məhəmməd Füzuli də bu günün mübariz, döyüşkən qadınlarını görsəydi, onlardan yazar, onların mübarizliyini, qəhrəmanlığını tərənnüm edərdi.

**3.Müşfiqin Füzuli Obrazlarına Münasibətdə Bolşevik İdeologiyasının Təsiri**

Müşfiq Füzulini sevir, onun yaradıcılığını orta əsrlərin ən böyük təcəssümü, bəlkə də poeziya sənəti adına ən böyük və əlçatmaz bir zirvə sayır. Ancaq Füzulinin təsvir etdiyi həyat və yaratdığı surətlərdən danışanda öz dövrü, xüsusən də sovet gerçəkliyini Füzuli dövrünün həyatına, müasirlərini isə Füzuli qəhrəmanlarına qarşı qoyur. Burada, görünür ki, XX əsrin 20-30-cu illərinin bolşevik təbliğatı öz ifadəsini tapmışdır. M. Müşfiqin özünün bir az sonra həbs olunaraq məhv edilməsi bütün bu inamın əsassız olduğunu təsdiq edir. 37-ci il hadisələri Müşfiq dövrünün Füzuli dövrünə nisbətən daha qeyri-insani və təhlükəli olduğunu aşkara çıxartdı. Ancaq buna baxmayaraq, Müşfiq haqqında yazılan əsərlərdə həmin dövrə, hadisələrə, müqayisələrə Müşfiqin baxışlarından o yana gedilmir. Məsələn, G. Hüseynoğlunun yazdıqlarını nəzərdən keçirək: "Leylalardan bəhs edərək dahi Füzulini yada salır, onun "Leyli və Məcnun"" əsərindəki zəif iradəli Leyli ilə bugünkü igid ərəb qızlarını müqayisə edir, Füzulini bugünkü Leylaların şücaətini təsvir etməyə çağırır" (Hüseynoğlu,1974:54). Unutmaq olmaz ki, Müşfiq dövründə ərəb qızlarının inqilaba qoşulması hadisəsinin başlanğıcı elə Nizami, Füzuli əsərlərindəki Leyli surətlərinin təsvirində qoyulmuşdu. Onların hərəkətləri öz dövrünə görə qeyri-adi bir inqilab, bir oyanış hadisəsi idi. Əlbəttə, Füzuli XX əsrin 20-30-cu illərində yaşasa idi, onun qadın qəhrəmanları başqa cür verilərdi. Bəlkə, doğrudan da, Füzuli indi ayrı şəkildə mübarizə aparan Leylilərdən danışardı. İndiki halda isə Müşfiqin Füzuli qəhrəmanına bu cür yanaşması, eləcə də son dövrlərin araşdırmalarında bu hadisəyə yanaşma tərzi ilə razılaşmaq doğru olmazdı. Müşfiq ərəb ölkələrindəki oyanmanı tərənnüm edərkən nə qədər haqlıdırsa, Füzulini öz dövrünün qadınlarını deyil, yeni dövrün inqilabçı, mübariz qadınlarını təsvir etməyə çağıranda bir o qədər haqsız görünür.

S. Vurğunun "Böyük Oktyabr revolyusiyasının XX ildönümünə hazırlıq haqqında məruzə"sində qoyulan məsələlər, məsləhətlər, tövsiyələr dövrün ədəbiyyatdan nə istədiyini daha aydın nəzərə çatdırır. Yoldaş Mikayıl Müşfiq canlı insan temasından yazmaq istəyir. Əvvəl o, ziyalılar haqqında yazmaq istəyirdi, mən buna razı olmadım.

Odur ki, elə qərara gəlmişik ki, Müşfiq gedib bir neçə ay kolxozda oturub kolxoza dair bir şey yazsın. . . "(Vurğun, 1972: 71) Əslində bu S. Vurğunun istəkləri yox, amirlik dövrünün

tələbləri, göstərişləri idi. Belə bir halda ənənəyə, o cümlədən Füzuliyə münasibətin hansı səviyyədə olduğunu anlamaq o qədər də çətin deyildir.

Qeyd etmək lazımdır ki, M. Müşfiq dövrünün ruhunu, ideya prinsiplərini tərənnüm edən şairdir. Şeirdə sadəliyi, aydınlığı əsas götürən şair kimi Müşfiq Füzuli şeirləri tipli əsərlər yazmır. Ancaq onun bir çox əsərlərində Füzuli şeirləri, Füzuli fikirləri ilə yaxınlıq aşkar görünməkdədir. Məsələn, M. Müşfiqin "Yenə o bağ olaydı" şeiri ilə Füzulinin "Tutuşdu qəm oduna şad gördüyün könlüm" şeiri arasında nə qədər ruh, məna yaxınlığı var. Müşfiq Füzulidən heç nə götürmür, ona bənzəməyə çalışmır, ancaq bu şeirlərin arasında necə də güclü bir ruh yaxınlığı olduğunu görmək çətin deyildir. G. Hüseynoğlunun da qeyd etdiyi kimi " Ahəngindəki səmimilik, təmkinli ehtiras, xəfif kədər xalları bu şeirə özgə bir məlahət verir"[5.42]

"Duyğu yarpaqları" şeirində də Füzuli poeziyasının fikir dünyası ilə xeyli yaxınlıqlar vardır. Aşağıdakı məşhur parçaya diqqət edək:

İstər bəstəkar ol, istər nəqqaş ol,
Şair ol, rəssam ol, heykəltəraş ol.
Yaratdığın şeyi sevərək yarat,
Hamıdan yüksək ol, hamıdan baş ol! (Müşfiq,2004:101).

Bu parçadakı fikir bütünlüklə Füzuli şeiri üçün səciyyəvi olan xüsusiyyətdir. Sübut üçün Füzulinin azərbaycanca "Divan"ının ilk qəzəlini xatırlamaq kifayətdir.

Qədənarəl eşqülil-üşşaqi min hacəl hüda
Saliki-rahi-həqiqət eşqə eylər iqtida.
Eşqdir ol nəşəyi-kamil kim ondandır müdam,
Meydə təşviri-hərarət, neydə təsiri-səda…
Vadiyi-vəhdət həqiqətdə məqami-eşqdir
Kim, müşəxxəs olmaz ol vadidə sultandan gəda. (Füzuli,II,1958:51).

Füzulidə də, Müşfiqdə də sənətdən, insandan tələb olunan eşqdir, sevgidir, ancaq sənətkarların hər birində bu mətləb onların özlərinə məxsus tərzdə ifadə və həll olunur. Əsas cəhət isə onların hər ikisinin eşqə münasibətidir. Yəni həm Füzulidə, həm də Müşfiqdə eşq hər şeydən öncə humanizm anlayışı, insanın mənəvi dünyasının gözəlliyi aspektində dəyərlənidrilir.

Müşfiq yaradıcılığının Füzuli ilə, onun poeziyası ilə bağlılığını Məsud Əlioğlu bir az da dəqiqləşdirərək belə ifadə edir: "Öz ruhu etibarilə klassik Azərbaycan poeziyası, xüsusilə Füzuli poeziyası Müşfiqə çox yaxındır. M.Müşfiqin Füzuli poeziyasının məzmun və xüsusiyyətlərinə dərin marağı onunla izah olunur ki, sovet şairi öz böyük sələfi kimi, böyük ictimai idealları əks etdirməyə çalışır. O, fikrin Füzuli şerinə xas olan yığcam və poetik cəhətdən dəqiq ifadəsinə ayrıca diqqət yetirir. Bu baxımdan Füzuli yaradıcılığı onun üçün poeziya məktəbi idi. Füzuli poeziyası üçün səciyyəvi olan dərin lirizm, insanın mənəvi aləminə hərtərəfli diqqət yetirmək M.Müşfiq poeziyasında hərtərəfli inkişaf etdirilmişdir" (Əlioğlu.1979:188). Müəllif onu da doğru qeyd edir ki, Müşfiqin şeir və poemalarında Füzuli yaradıcılığına məxsus fəlsəfi məzmun və forma əlvanlığı yeni tərzdə, yeni formada meydana çıxır. O heç yerdə, heç nəyi Füzulidən eyniylə götürmür. Onun üçün Füzuli irsi həqiqətən bir yaradıcılıq məktəbidir.

Burada bir qənaəti mütləq söyləmək lazımdır: Müşfiq Füzulini nə qədər sevsə də, onun sənəti qarşısında nə qədər böyük hörmətlə baş əysə də, o özünəqədərki Azərbaycan ədəbiyyatından başqa, türk, fars şeirindən bəhrələnmiş, onları bilmiş, öyrənmiş, bəyəndiyini qəbul etmiş, bəyəndiyini rədd etmişdir. Onun Ömər Xəyyam rübailərini, "Şahnamə"dən müəyyən parçaları tərcümə etməsini, Bahar Şirvani, Seyyid Əzim, Nədim, Vaqif xatırlamalarını, Əkrəm Cəfərə yazdığı məktubda Faruq Hafizdən, Nəcib Fazildən, "Sərvəti-Fünun"dan danışmasını, Sabir, Ü.Hacıbəyov, C.Cabbarlı və başqaları haqqında şeirlərini, H.Cavidlə dostluğunu və s. xatırlasaq, M.Müşfiqin poeziya məktəbinin çox böyük olduğunu

demək lazım gəlir. Əlbəttə, bu yöndə Füzuli müstəsna yer tutur. Yuxarıda diqqət yetirdiyimiz faktlar da həqiqəti təsdiq edir.

Müşfiq poeziyası formaca yeni tipli, yeni üslublu bir aləmdir. O, klassik ədəbi janrlara müraciət etmir, müraciət etməyi sevmir, ancaq istədiyi vaxt bu formalardan bəhrələnə bilir. Əli Hüseynzadə maraqlı bir faktı qeyd edir. Bir dəfə necə olursa, Əli Hüseynzadə ondan bir qəzəl yazmağı xahiş edir. Müşfiq ona bildirir ki, rədif və qafiyəsini söylə, həmin rədif və qafiyə ilə yazım. Bu vaxt qarşılarında türk şairi Nədimin "Divan"ı var imiş. Açırlar, "səni" rədifli bir qəzəl çıxır. Müşfiq elə oradaca 20-25 dəqiqə ərzində aşağıdakı qəzəli yazır.

Mehribanım, baği-eşqin, ey müəttər süsəni
Qoyma öpüm gizlicə hər bülbüli-bədxu səni.
Mən sənin bir rəhmdil səyyadınam, gəl qoynuma,
Gəl öpsün, gəl oxşayım, ey nazənin ahu, səni
Sızlayan mən, ah edən mən, bilməzəm, əmma neçin.
Həp sıxar ağusuna gah o səni, gah bu səni.
Çərxi dövranın muəlla iltifatındanmı bu,
Cami-ömrüm, görmədim heç biz zaman məmlu səni.
Sevgi səhrasında sərgərdan gəzən bir təşnəyəm,
Sevgilim, içsəm nolur şəhdi-zülali-busəni?
Müşfiqa, iqlimi-sevdadan ziyanın yox, fəqət
Tiri-müjgan ilə yıxdı bir kəman əbru səni. (Hüseynoğlu,1999:42).

Bu qəzəl göstərir ki, Müşfiq istəsəydi, yüzlərlə, bəlkə minlərlə qəzəl yaza bilərdi. Bu qəzəldə bir yandan Nədim, o biri yandan Füzuli ruhu görünməkdədir. Buradakı yüngül sevgi hisslərinin ifadəsi Nədimi xatırladır. Qəzəl onun şerinə bənzətmə kimi yazıldığından, şairin özünün dediyi kimi Nədim şeirlərini əzbər bilən Müşfiq məzmunda da Nədimi xatırlatmağa çalışır. Ancaq "Çərx dövranın müəlla iltifatındanmı bu, cami-ömrüm, görmədim heç bir zaman məmlu səni" beytində Füzuli qəzəllərində gördüyümüz içdən gələn, gerçəyi ifadə edən bir kədərin olduğunu görürük.

Müşfiqin şair qəlbində həmişə bir Füzuli ruhu, Füzuli dünyası yaşayır. Onun "Qaya" poemasında, "Yenə o bağ olaydı", "Oxu, tar" və başqa əsərlərində bu ruhun aydın ifadəsini görürük. M. Müşfiqin yaşayıb-yaratdığı dövrdə hakim olan sosialist realizmi metodunun "tələbi həyatı öyrənmək, dərk etmək, inkişaf yollarına bələd olmaq, tipik şəraitdə mövcud olan tipik hadisəni tapmaq, onu doğru və düzgün olaraq bədii şəkildə bizə təqdim etməkdən ibarət idi" Əlbəttə, həyatı bu "doğru və düzgün təqdim" etmək altında nələr düşünüldüyünü təsəvvür etmək indi o qədər də çətin deyildir. M. Müşfiq də dövrünün bir çox sənətkarları kimi, doğrudan da, bu tələblərə, həyatı doğru əks etdirməyə xüsusi diqqət yetirirdi. M. Müşfiq irsinin tədqiqatçısı G.Hüseynoğlu şairin bu yöndə göstərdiyi operativliyi nəzərdə tutaraq yazır: "Həmin ildəcə Mikayıl Müşfiq M. K. Ələkbərlinin sözləri ilə səsləşən məramnamə səciyyəli şeirlərinin birini belə başlamışdır:

Sən varlığın eynisən, buna sözmü var?
Ürəyisən, beynisən, buna sözmü var?
Gecələr ay sənindir, kainat kimi gündüzlər günəş!
Hər şey gözəlləşəndə, bu həyat kimi sən də gözəlləş! (Hüseynoğlu,1999:5).

**Nəticə**

Təbiidir ki, M. Müşfiq bir sənətkar kimi, sosialist realizminin həyatı doğru və düzgün əks etdirmək tələbini həmişə, hər yerdə dövrün gözlədiyi şəkildə yerinə yetirə bilmirdi. Ona görə də "Oxu, tar" kimi şeirlər meydana gəlirdi. M. Müşfiqin bütün səylərinə baxmayaraq, ruhundakı, şeirlərindəki zamanla uyuşa bilməyən həqiqətpərəstlik, həm də Füzuli poeziyasının üsyankar ruhundan gələn keyfiyyətlər onu qarşısıalınmaz bir əminliklə 37-ci il faciəsinə doğru aparırdı. Əlbəttə ki, "Şairi ürəklərdə yaşadan, zəngin ədəbi irsini xalqa sevdirən, şeirlərini oxucuların dilinin əzbəri edən poeziyasının xəlqiliyi, vətənpərvərliyi, müasirliyi, humanizmidir, orijinallığı və novatorluğudur.

Novatorluğu bu poeziyanın həm məzmununda, həm də sənətkarlıq xüsusiyyətlərində görmək olar”. (Hüseynoğlu,1974:101)

**ƏDƏBİYYAT**


1. Əlioğlu Məsud. Məhəbbət və qəhrəmanlıq.Bakı, Yazıçı, 1979
2. Füzuli Məhəmməd. Əsərləri. I cild, Bakı, Azərbaycan EA Nəşriyyatı, 1958
3. Füzuli Məhəmməd. Əsərləri. II cild, Bakı, Azərbaycan EA Nəşriyyatı, 1958
4. Hüseynoğlu Gülhüseyn. Mikayıl Müşfiq. Fotoalbom. Bakı, İşıq, 1999.
5. Hüseynoğlu Gülhüseyn. Mikayıl Müşfiqin poeziyasında həyat həqiqəti və romantika. Mikayıl Müşfiq. Həyat sevgisi. Bakı, Yazıçı, 1988.
6. Hüseynoğlu Gülhüseyn. Mikayıl Müşfiqin yaradıcılıq yolu. Bakı, ADU Nəşriyyatı,1974
7. Hüseynoğlu Gülhüseyn. Səmimi insan, vətəndaş şair – Mikayıl Müşfiq. Seçilmiş əsərləri, Bakı, Maarif, 1983.
8. Müşfiq Mikayıl. Seçilmiş əsərləri, Bakı, Maarif, 1983
9. Müşfiq Mikayıl. Seçilmiş əsərləri, Bakı, Şərq-Qərb, 2004.
10. Müşfiq Mikayıl. Əsərləri, üç cilddə, II cild, Bakı, Azərnəşr, 1970
11. Vurğun Səməd.Əsərləri, Altı cilddə,VI cild, Bakı, Elm,1972